19 noyabr / 2021

# Vətənini canından əziz tutan Lerikin qəhrəman oğlu

***Şəhid mayor Ramil Mərdan oğlu Ağayev özünü biləndən ilahi bir məhəbbətlə doğma Vətəninə bağlanır. İkinci Qarabağ müharibəsində haqq savaşımızda 36 yaşında canında keçməklə bunu tam sübut edir. Onun müqəddəs şəhidlik yolu tutması yalnız Vətəninin yaşaması üçün oldu. Məhz buna görə Ramilin ölümü dünyaya göz açdığı dağlar diyarı, igidlər yurdu Lerik rayonuna şöhrət gətirdi. Fəqət, Vətən, torpaq uğrunda müqəddəs şəhidlik zirvəsi hər kəsə nəsib olmur. İndi buranın hər yerdə, hər zaman Ramilin adı şirin dillərdən düşmür. Vətən sevgisi Ramilə elə bir əbədi ömür yaşatdı ki, o heç vaxt unudulmaz. Hər dəfə xatırlananda ürəklərə qeyrətdən, qürurdan sevgi bəxş edər. İndi onun həyat yolu hər lerikli üçün şərəfdir, qeyrətdir, ucalıq zirvəsidir.***

Vətən sevgisi kiçik yaşlardan Ramilin həyatına daxil olur. 18 yaşına çatanda elini, yurdunu həqiqi məhəbbətlə sevən vətəndaş olduğu aydın görünür. Lerikli balası canına yağı dadanmış yurd yerlərinin taleyinə biganə qa'la bilmir. Odur ki, çətin məqamda, odlar yurdu, müdriklər beşiyi, varlığına ürəkdən tapındığı doğma Azərbaycanına sipər olmaq üçün hərbiçi peşəsini seçir. Düşmən tərəfindən işğal edilən



Vətən torpaqlarının hər qarışının qisasını yağıdan almaq məqsədilə 2002-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Raket və Artilleriya Qoşunları və Artilleriya ixtisasına daxil olur. Hər şeyi xalqına, Vətəninə gərək olmaq eşqi, yanğısı ilə öyrənir. 26 iyun 2006-cı ildə həmin təhsil ocağını mükəmməl biliklə başa vurur. 2007-ci ildə isə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Ehtiyat Zabit Hazırlığı kursunu müvəffəqiyyətlə bitirərək Müdafiə nazirinin əmri ilə leytenant hərbi rütbəsi verilərək Mingəçevir şəhərində "N" saylı hərbi hissəyə göndərilir.

Zabit Ramil canından artıq sevdiyi doğma Azərbaycana ləyaqətlə xidmət edir, onun keşiyində ayıq-sayıq durur. Necə deyərlər, torpağına-daşına canını qurban verən oğul olur Ramil Vətəninə. 27 sentyabr 2020-ci ildə başlanan İkinci Qarabağ müharibəsində isə qeyrətli igid oğlanların sırasında Vətənin harayına birinci çatır, halal torpaq uğrunda ölüm-dirim savaşları gedən ən qaynar nöqtələrdə qəhrəmanlıqla döyüşür, qəddar erməni faşistlərinin 12 tankını sıradan çıxarır və xeyli sayda canlı qüvvəsinə matəm libasını geyindirir. 8 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlərdə Vətən sevdalısı şəhid olur. Hazırda Lerik şəhərində sinəsinə baş qoyduğu torpağı rayon əhalisi böyüklü, kiçikli özlərinə and yeri bilirlər.

İgid Vətən oğlu Ramil Ağayev ölümündən sonra dövlət tərəfindən 3-cü dərəcəli "Rəşadət" ordeninə, "İgidliyə görə", "Vətən uğrunda", eləcə də Füzulinin, Cəbrayılın azad olmasına görə medallara layiq görülür. Şəhid zabitin təltifləri ailə üzvlərinə verildi.

Bəli, xalqımızın igid, cəsur, qəhrəman oğlu Ramil ölümü ilə gələcək nəsillərə nümunə, örnək olan boylandığı rəşadət zirvəsindən daha mənalı, dəyərli yaşamaq üçün bizləri Vətəni, torpağı sevməyə səsləyir. Etibarlı, sədaqətli həyat yoldaşı, yadigar qoyduğu iki qız uşağı isə tutduqları saf əməllərlə Ramilin qalxdığı zirvəyə sanki bir şərəf qatırlar...

***Zəfər Orucoğlu, AJB üzvü***